# Həzrət Bab

## *Yeni Günün Müjdəçisi*



**Həzrət Bab 20 oktyabr 1819-cu ildə İranın cənubunda yerləşən Şiraz şəhərində anadan olmuşdur. O hələ uşaq ikən atası vəfat etmişdi. Onu dayısı böyütmüş və lap kiçik yaşında məktəbə qoymuşdu.**



**Həzrət Babın müəllimi Onun böyük qabiliyyətini dərhal gördü və anladı ki, belə bir qeyri-adi uşağa dərs vermək iqtidarında deyil. Allah Həzrət Baba fitri bilik əta etmişdi.**



**O zaman İran əhalisi Allahın yeni Elçisinin gəlişini gözləyirdilər. Onlar dua edirdilər ki, O, tezliklə zühur etsin və Özü ilə yer üzünə sülh və ədalət gətirsin. Çoxlu insanlar vəd Olunmuşu axtarmaq üçün evlərini tərk etdilər.**



**1844-cü ilin 23 may axşamı vəd olunmuş Kəsin axtarışında bir gənc Şiraza yetişdi. Həzrət Bab onu şəhər darvazasının eşiyində qarşıladı və onu Öz evinə dəvət etdi ki, uzun səfərdən sonra özünə gəlsin. Orada Həzrət Bab elan etdi ki, insanların həsrətlə gözlədikləri Kəs Onun Özüdür.**



**“ Bab” sözünün mənası qapı deməkdir. Həzrət Bab elan etdi ki, tezliklə Allahın başqa bir Elçisi gələcək və O, dünyanın bütün xalqlarını bir ailədə birləşdirəcək. Həzrət Bab bəşəriyyəti yeni və calallı bir gələcəyə aparan bir qapı idi.**



**Həzrət Babın ardıcıllarının sayı sürətlə çoxalırdı. Bütün İran boyunca, onlar Onun nazil etdiyi ilahi təlimləri yaymağa başladılar.**



**Lakin tezliklə dövlət rəsmiləri və hakimiyyətlərini itirməkdən qorxan din xadimləri Allahın yeni Dininə qarşı qalxdılar. Onlar Həzrət Babı Onun ardıcıllarından ayıraraq, ölkənin ən ucqar qalalarından birinə sürgün etdilər.**



**Həzrət Babın ardıcılları ən qəddar təqiblərə məruz qaldılar. Onlara hücum etdilər, onları döydülər və zindana saldılar. Minlərlə insan öldürüldü, lakin Allahın Əmri yayılmaqda davam etdi.**



**1850-ci ildə Həzrət Bab şəhid edildi. Hökumətin əmri ilə O, şəhər meydanlarından birində ardıcıllarından biri ilə asıldı və əsgər alayı tərəfindən güllələndi. Bu zaman Həzrət Babın cəmisi 31 yaşı vardı.**



**Həzrət Bab Həzrət Bəhaullahın, “  Allahın Calalı”  nın – O kəs ki, Onun Dininin bayrağının yer üzünün hər bir guşəsində qaldırılması əvvəlcədən müəyyən olunmuşdu – gəlişi üçün yol hazırlamaq naminə həyatını qurban verdi.**

Müəllif hüquqları © 2020, 2024 Ruhi Fondu, Kolumbiya
Bütün hüquqlar qorunur. Versiya 2.1.1.PE.PV 2024-cı ilin fevral ayında nəşr edilmişdir.

Ruhi İnstitutu
Elektron ünvan: instituto@ruhi.org
Veb-səhifə: www.ruhi.org